# Bu il milli parklara 100 mindən çox turist səfər edib

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin sektor müdiri Arzu Səmədova jurnalistlərə açıqlamasında bildirib ki, Azərbaycanın milli parklarına 2019-cu il ərzində 104 276 turist səfər edib, bunların 93 804-ü yerli, 10 472-si isə xarici vətəndaş olub. Ötən illə müqayisədə, bu il milli parklara gələn ziyarətçilərin sayında artım müşahidə edilib. 2018-ci ildə ziyarətçilərin sayı 79 997 nəfər olub.**

A.Səmədova qeyd edib ki, milli parklara gələn turistlərin sayının artmasına səbəb ilk növbədə aparılan təbliğat işləri, eyni zamanda bu ildən milli parklarda müxtəlif yaş qruplarını əhatə edən maraqlı və rəngarəng kütləvi tədbirlərin təşkil olunmasıdır.

Sektor müdiri bildirib ki, ölkəmizdə 10 milli park fəaliyyət göstərir. Milli parklara səfər etmək istəyənlər Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi internet saytının "xidmətlər" bölməsinə daxil olub istədikləri milli parka onlayn şəkildə və ya milli parkların giriş məntəqələrindən bilet əldə edə bilərlər.

*Samirə ƏLİYEVA,*
*"Xalq qəzeti"*





Xalq qəzeti.- 2019.- 28 dekabr.- S.8.